**Əliyev Ə.** Eyni gündə doğuldular - eyni gündə tale yaşadılar // Xalq qəzeti. - 2023. - 10 sentyabr. - **№ 195**. - S. 9.

**Vətən yolunda həlak olaraq ali məqama yüksələnlər ulu Tanrının sevimli bəndələridir. Dini kitablarda yazılıb ki, şəhidin qanının ilk damlası axanda artıq bütün günahları silinmiş olur. Azərbaycanın ərazi bütövlüyü naminə minlərlə gənc canından keçib. Bütün şəhidlərimizin adı və xatirəsi bizim üçün əzizdir. Amma bu gün məhz yubileyi qeyd olunan şəhidlərimiz haqqında söhbət açmaq istəyirik.**

…"Azərbaycanın Milli Qəhrəmanı" Fərhad Qənbər oğlu Hümbətovun 55 yaşı tamam olur. 1968-ci ildə Qərbi Azərbaycanın Qarakilsə rayonunun Arçut kəndində doğulub. Orta məktəbin 8-ci sinfini bitirdikdən sonra texniki-peşə məktəbində sürücü-mexanik peşəsinə yiyələnib. Hərbi xidmətini əvvəlcə Rusiyanın Çita şəhərində, sonra isə Monqolustanda keçib,

Fərhad tərxis olunduqdan iki il sonra, sıralarında qulluq etmiş olduğu sovet qoşun hissələrinin Bakıda törətdiyi 20 yanvar hadisələri zamanı az qala şəhid olacaqdı. Sadəcə, o zaman hələ bu, qismətində deyilmiş. O gecə qarşısına çıxan hər şeyi əzib keçən tanklardan birinin altından möcüzə sayəsində salamat çıxıb.

Həmin hadisədən sonra Fərhad məhz tankçı olub Vətənin keşiyində durmağı qarşısına məqsəd qoyur və 1991-ci ilin oktyabr ayında cəbhəyə gedir. Könüllülərdən ibarət Şıx batalyonunun sıralarında döyüşə atılaraq, bir neçə kəndin düşməndən təmizlənməsində şücaət göstərir.

Fərhadın döyüş yolu çox çətin olub. O, 1992-ci il martın 7-də Şuşa, Kosalar, Xankəndi istiqamətlərində uğurlu döyüş əməliyyatlarında daha çox fərqlənib və düşmənin 5 postunu dağıdıb.1992-ci il martın 29-da isə Xankəndi yaxınlığında sayca üstün olan erməni silahlıları ilə döyüşə girib, yaralıları xilas edə bilsə də, özü qəhrəmancasına həlak olub. Ölümündən sonra Fərhada Milli Qəhrəman adı veriləndə bütün silahdaşları bunu şəhidin halal haqqı hesab ediblər.

Ailəsi təskinkliyi ondan tapır ki, xidmətləri layiqincə qiymətləndirilən şəhid qəhrəman indi bütün millətin fəxridir. Bakının Binəqədi rayonunda Fərhad Hümbətovun adına park salınıb və orada büstü qoyulub.

Tərtər rayonu Kəngərli kəndində doğulub böyüyən şəhid baş leytenant Qənbər Bəhruz oğlu Qənbərlinin isə bu gün 30 yaşı tamam olur. Ağlı kəsəndən xalqımızın erməni xəyanəti ilə üz-üzə qaldığını gördüyü üçün hərb sənətinə yiyələnmək və düşməndən qisas almaq qərarına gəlib. 2012–2016-cı illərdə H.Əliyev adına Ali Hərbi Məktəbdə oxuyub, sonra "N" saylı hərbi hissədə bölük komandiri olub.

Vətən müharibəsinin ilk günü Murovdağda döyüşlərə atılan Qənbər düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərib, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirib. Elə həmin gün də şəhidlik zirvəsinə ucalıb. Amma düz 8 ay onun nəşi tapıla bilməyib. Nəhayət, 2021-ci il mayın 22 də tapılıb və ailəsinə təhvil verilib.

Ölümündən sonra Qənbər Qənbərli 3-cü dərəcəli "Rəşadət" ordeninə, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görülüb.

İsmayıllı şəhərinin yetirməsi Vüsal Aydın oğlu Dəmirov da sağ olsaydı, bu gün 30 yaşının şadyanalığını dogma əzizləri və dostları ilə keçirəcəkdi. Amma onun da alnına şəhadətə qovuşmaq yazılıbmış.

Vətən müharibəsindən 4 il öncə Quru Qoşunlarının tərkibində məlum Aprel döyüşlərində, 44 günlük "Zəfər Yürüşü" ərəfəsində isə Tovuz döyüşlərində iştirak edən Vüsal həmişə ön sırada olub. Müddətdən artıq xidmət keçib, zirehli döyüş maşınının sürücüsü kimi daim qorxmazlıq nümunəsi göstərib. II Qarabağ savaşında cəmi bir həftə iştirak etsə də, adını millətin şərəf kitabına qızıl qanı ilə yaza bilib. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Digər şəhidimiz Vüsal Asdan oğlu İsgəndərovun isə 25 yaşı tamam olur. Bərdənin Nifçi kəndində doğulan Vüsal döyüş bölgəsinə yaxın yerdə böyüdüyü üçün həyatını hərb sahəsinə bağlayıb, əsgərlikdən sonra müddətdən artıq xidmətə yazılıb. Erməni işğalı altında olan rayonların azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda II Qarabağ müharibəsi başlananda sevinib ki, qisas almağın vaxtı gəlib çatdı. Fəal döyüşlərə qatılaraq, Tapqaraqoyunlu, Gülüstan, Suqovuçan və Ağuçuq istiqamətində gedən hərbi əməliyyatlarda iştirak edib. Vüsal müharibənin 3-cü günü – 2020-ci il sentyabrın 29-da Ağuçuq kəndi ərazisində düşmən atəşinə tuş gəlib və şəhid olub.

Döyüş tapşırıqlarını igidliklə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlara əsasən Vüsal İskəndərov ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Niyaməddin Hüsaməddin oğlu Sultanzadə üç il əvvəl, 22 yaşında həyata əlvida desə də, ölümü ilə əbədiyyət qazanan oğullarımızdandır.

Masallı şəhərindəki 1 nömrəli tam orta məktəbini bitirmişdi, çoxlu arzuları vardı. Azərbaycan Dövlət Aqrar Universitetinin aqronomluq fakültəsinin (qiyabi) tələbəsi idi. Gələcəkdə fermer kimi tanınmaq, ölkənin ərzaq bolluğuna töhfələr vermək istəyirdi. Amma müharibə başlananda "Öncə Vətəndir!" deyərək, könüllü olaraq cəbhəyə yazılıb. Cəbrayıl və Füzuli rayonlarında düşmən hücumlarının qarşısının alınmasında şücaət göstərib.

Qələbəyə cəmi 3 gün qalmış – noyabrın 6-da Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə Niyaməddin igidlik nümunəsi göstərərək şəhid olub. Doğma Masallıdakı Dadva qəbiristanlığındakı dəfn mərasiminə bütün el-oba qatılıb. Ölümündən sonra təltif edildiyi "Vətən uğrunda" medalı Niyaməddinin ailəsinə təqdim olunub. Bir müddət sonra isə o, Qubadlının və Cəbrayılın azad olunmasına görə, həmçinin "Cəsur döyüşçü" medallarına layiq görülüb.